**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT MİQRASİYA XİDMƏTİ**

**Q Ə R A R I**

**12 may 2017-ci il** **№ 03**

**Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin 2012-ci il 12 noyabr tarixli 10 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Qaçqın statusunun müəyyənləşdirilməsi idarəsi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə**

"Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 30 dekabr tarixli 483-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 yanvar tarixli 2609 nömrəli Sərəncamının 1.3-cü bəndinin icrası məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 mart tarixli 560 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti haqqında Əsasnamə"nin 16.7-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti

**Q Ə R A R A A L I R:**

1. Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin 2012-ci il 12 noyabr tarixli 10 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Qaçqın statusunun müəyyənləşdirilməsi idarəsi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 3.1.4-1-ci yarımbənd əlavə olunsun:

"3.1.4-1. Azərbaycan Respublikasının ərazisində qaçqın statusu almış şəxsləri yaşayış yeri üzrə qeydiyyata almaq və həmin məlumatların qanunvericiliklə müəyyən edilmiş qaydada «Giriş-çıxış və qeydiyyat» idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminə təqdim etməsi işini təşkil etmək;".

2. Qərar qəbul edildiyi gündən üç gün keçənədək Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunsun.

**Azərbaycan Respublikasının**
**Dövlət Miqrasiya Xidmətinin rəisi**

**II dərəcəli dövlət**
**miqrasiya xidməti müşaviri** **Firudin Nəbiyev**